# Azərbaycan İlahiyyat İnstitutunun tələbələri təhsillərini Türkiyədə davam etdirəcəklər

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) tələbələri təhsillərini 2024/2025-ci tədris ilinin yaz semestri ərzində Türkiyə Respublikasının İstanbul 29 Mayıs Universitetində davam etdirəcəklər.



Mübadilə İstanbul 29 Mayıs Universiteti ilə Azərbaycan İlahiyyat İnstitutu arasında 2018-ci ildə imzalanmış Əməkdaşlıq müqaviləsi çərçivəsində həyata keçirilib.

Əməkdaşlıq müqaviləsinə əsasən, sayca 4-cü tələbə mübadiləsi çərçivəsində AİI "Dinşünaslıq" ixtisasının III kurs tələbələri - Sadiq Babayev və Murad Feyzullayev İstanbul 29 Mayıs Universitetində bir semestr ərzində təhsil alacaqlar.

İstanbul 29 Mayıs Universitetində rektor Mustafa Sinanoğlu, İdarə Heyətinin sədri Tayyar Altıkulaçın tələbələr və AİI-nin xarici əlaqələr üzrə mütəxəssisi Şəms Bağırova ilə görüşü təşkil olunub. Görüşdə hər iki ali təhsil müəssisəsi arasında əməkdaşlıq əlaqələrinin mövcud vəziyyətindən məmnunluq ifadə olunub. Bu əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Daha sonra AİI-nin nümayəndə heyətinin İstanbul 29 Mayıs Universiteti İlahiyyat fakültəsinin dekanı Ahmet Yücel, Tələbələrə dəstək şöbəsinin müdiri və Oğlan tələbə yataqxanasının müdir müşaviri Ahmet Ali Tonyalı ilə görüşü keçirilib.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.-19 fevral (№17).- S.17.